*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 3*
*Səhifə: 13-23*
*http://dx.doi.org/10.59849/2663-4406.2024.3.13*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Füzulinin Azərbaycan-türk divanında qitə janrı

**Ataəmi Mirzəyev**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: ataemi@rambler.ru

**Annotasiya.** Böyük Azərbaycan şairi Məhəmməd Füzulini (1494-1556) bütün türk dünyasında sevdirən və məşhurlaşdıran ana dilində yazdığı divandır. Şairin divanında, demək olar ki, lirik şeirin bütün janrlarında yazılmış nümunələr vardır. Məlumdur ki, Füzuli, hər şeydən əvvəl, qəzəl ustadı kimi tanınır. Şairin qəzəlləri öz lirizmi, fikir, hiss və düşüncələrin bənzərsiz ifadəsi ilə tanınaraq sevilir. Füzulinin divanında qəzəllərlə yanaşı, qitə janrında qələmə alınmış örnəklər də ayrıca yer tutur. Füzulinin qitələri məzmun, forma və sənətkarlıq baxımından diqqəti çəkir. Şair ənənəyə uyğun olaraq qitələrində təxəllüsdən istifadə etməmiş, həmin janrın həcmcə müxtəlif nümunələrini qələmə almışdır. Füzulinin qitələri mövzusuna görə də zəngin və rəngarəngdir. Onlar məzmunca zəngin olub, ictimai, əxlaqi-tərbiyəvi, nəsihətamiz, insan xarakteri, şeir-sənət və digər məsələləri əhatə edir. Məqalədə şairin qitələri qeyd olunan cəhətlərlə yanaşı, qafiyə, rədif, forma və vəzn xüsusiyyətləri baxımından da tədqiqata cəlb edilir, Füzuli qitələrinin özünəməxsusluğu ilə diqqət çəkdiyi göstərilir.
**Açar sözlər:** Füzuli, janr, qitə, beyt, qafiyə, vəzn

**Məqalə tarixçəsi:** göndərilib – 09.04.2024; qəbul edilib – 22.04.2024

# Gita genre in Azerbaijani-Turkish Diwan by Fuzuli

**Ataemi Mirzayev**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: ataemi@rambler.ru

**Abstract.** The great Azerbaijani poet Mahammad Fuzuli (1494-1556) is very popular in the Turkish world and the reason for this is a *diwan* written by him in his native language. In the *diwan* by poet, there are works written in all genres of lyrical poem. It is known that Fuzuli is known as a ghazal master. Poet's *ghazals* are best known and beloved for its unique expression of lyricism, opinion, sense and thoughts. In addition to *ghazals*, examples written in the *gita* genre also have an extensive coverage in Fuzuli's *diwan*. Fuzuli's *gitas* (an Arabic word, it means section, part) attract attention in terms of content, form, and artistry. The poet did not use a pseudonym in his *gitas* and wrote many different examples of this genre. Fuzuli's *gitas* are rich and multifaceted in terms of theme. They are rich in content, and covers the social, moral-educational, exhortative, human character, poetry-art and other issues. Fuzuli's *gitas* in addition to the aforementioned aspects, is studied in

terms of features such as rhyme, radif, form and measure. It is mentioned that Fuzuli's gitas was unique.

**Keywords:** Fuzuli, genre, gita, verse, rhyme, measure

**Article history:** received – 09.04.2024; accepted – 22.04.2024

### Giriş / *Introduction*

Divan ədəbiyyatında işlək olan janrlardan biri də qitədir. Ərəbcə *parça, hissə, qisim* anlamlarını bildirən qitə bir ədəbiyyat termini olaraq iki və ya iki beytdən uzun, mətlə və məxləs beyti olmayan nəzm ölçüsünün adıdır [8, s.73]. Qəzəl və qəsidədən fərqli olaraq, qitələrdə birinci beyti təşkil edən misralar bir-biri ilə qafiyələnmir. Onun beytlərinin ilk misrası sərbəst, ikinci misraları isə həmqafiyə olur: *ab, cb, çb, db, ...* . Qitələrdə şairin təxəllüsü, demək olar ki, işlənmir. Divan şeirində daha çox iki beytdən ibarət qitələr yazılsa da, beytləri sayca çox olan qitələr də vardır. Həcmi iki beytdən çox olan qitələrə *qiteyi-kəbirə* deyilir. *Qiteyi-kəbirə* sözlük anlamı etibarilə *böyük, uzun qitə* mənasına uyğun gəlir [1, s.61]. Uzun qitələri qəsidələrdən ayıran əsas xüsusiyyət onlarda mətlə və məxləs beytlərinin olmamasıdır. Yığcam, dərin məna ifadə edən və hər biri müstəqil əsər kimi dəyərləndirilə bilən qitələrin mövzusu olduqca çeşidli və rəngarəngdir. Mövzu baxımından ictimai-siyasi, əxlaqi-tərbiyəvi, fəlsəfi fikirləri, dostluq, insan xarekteri ilə bağlı müxtəlif məzmunları özündə birləşdirən qitələrdə əbcəd hesabı ilə verilən maddeyi-tarixlərə də çox rast gəlinir.

Klassik şairlər divan tərtib edərkən qəsidə və qəzəllərdən sonra öz qitələrini də "Müqəttəat" başlığı ilə divanlarına daxil etmişlər. Bu baxımdan anadilli ədəbiyyatımızda Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Nemətullah Kişvəri divanlarında qitə janrına aid heç bir nümunəyə rast gəlməsək də, Şah İsmayıl Xətayinin divanında bir qitə nümunəsi vardır. Füzulidən başlayaraq divan şeirimizdə qitə janrında yazılmış nümunələr çoxalmağa başlayır. Məsihi Təbrizi, Süruri, Ruhi Bağdadi və digər sənətkarların divanlarında da qitələr vardır.

### Əsas hissə / *Main part*

Məhəmməd Füzulinin (1494-1556) anadilli divanında digər klassik şeir janrları ilə yanaşı, qitələr də xüsusi yer alır. Şairin Azərbaycan-türk divanında 42 qitə vardır. Akademik Həmid Araslı tərəfindən tərtib edilən Füzuli əsərlərinin bütün nəşrlərinin birinci cildində "Qitələr" başlığı altında 42 qitə verilmişdir [3, s.353-364; 5, s.371-382; 6, s.351-362]. Eləcə də Türkiyədə Füzulinin türkcə divanının son elmi-tənqidi mətnində "Müqəttəat" adlı bölümə də 42 qitə daxildir [2, s.715-744]. Ümumilikdə, Füzulinin divanı ilə yanaşı, ona yazılan dibaçədə, müəmmalarında, eləcə də "Tərcümeyi-Hədisi-ərbəin" və "Hədiqətüs-süəda" əsərlərində də qitələr vardır. Burada konkret olaraq şairin ana dilində yazdığı divana daxil olan qitələr haqqında bəhs ediləcəkdir.

Klassik şairlər divan tərtib edərkən qəsidə və qəzəllərdən sonra öz qitələrini də "Müqəttəat" başlığı ilə divanlarına daxil etmişlər. Bu baxımdan anadilli ədəbiyyatımızda Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Nemətullah Kişvəri divanlarında qitə janrına aid heç bir nümunəyə rast gəlməsək də, Şah İsmayıl Xətayinin divanında bir qitə nümunəsi vardır. Füzulidən başlayaraq divan şeirimizdə qitə janrında yazılmış nümunələr çoxalmağa başlayır.

Öncə qeyd edildiyi kimi, qitə janrında qələmə alınan nümunələrdə təxəllüs işlətmək səciyyəvi olmadığından, Füzulinin qitələrində də təxəllüsdən istifadə edilməmişdir. Füzulinin qitələri mövzusuna görə zəngin və rəngarəng olub, ictimai, əxlaqi-tərbiyəvi, nəsihətamiz, insan xarakteri, şeir-sənət və digər məsələlərlə bağlı müxtəlif məzmunlu nümunələri əhatə edir.





Füzulinin yaradıcılığı ilə tanışlıqdan məlumdur ki, şair hər şeyin səbəbini, başlanğıcını, əsasını, mənasını eşqdə görmüşdür. Sanki elmlə eşqi tərəziyə qoyan Füzuli tərəzinin eşq olan gözünün daha ağır gəldiyini bildirərək qitələrinin birində yazır:

*Elm kəsbilə rütbeyi-rif'ət*
*Arizuyi-mühal imiş ancaq.*
*Eşq imiş hər nə var aləmdə,*
*Elm bir qiylü qal imiş ancaq.* [6, s.354]

Şairin qənaətinə görə, elm öyrənməklə, bilik əldə etməklə yüksək rütbə mümkün olmayan bir arzu imiş, aləmdə nə varsa, eşq imiş, elm ancaq hay-küy imiş. Səlim Rəfiq Rəfioğlu şairin yaradıcılığında eşq məsələsinə toxunaraq yazır: "Füzulinin şeirlərində eşqin bütün təcəllisinə və bütün motivlərinə təsadüf etmək mümkündür. O, eşqi sistemləşdirməkdən ziyadə tərənnüm etmişdir. Fəqət bu tərənnüm şairdəki xüsusiyyət və səmimiyyətin bariz ifadələri ilə doludur. Füzulinin həyatı, ümumiyyətlə, eşq havası içində keçmiş və həmən-həmən daima eşqdən bəhs etmişdir" [7, s.248]. Bu baxımdan şairin yuxarıda verilən qitəsi də təsadüfi sayılmamalıdır.

Füzuli öz qitələrində, əsasən, müxtəlif ictimai problemlər haqqında olan qənaətlərini qələmə almışdır. Şairin qitələrinin hər biri, demək olar ki, konkret bir bədii obyektə müraciətlə yazılmaqla çeşidli məzmun əhatəsinə malikdir. Müəllifin mövzu olaraq seçdiyi öyüd, nəsihət və məsləhətlər indinin özündə də öz aktuallığını qoruyub saxlamaqdadır. Füzulinin müəllimə müraciətlə yazılan qitəsi bu baxımdan səciyyəvi sayılır:

*Ey müəllim, aləti-təzvirdir əşrarə elm,*
*Qılma əhli-məkrə tə'limi-maarif zinhar!*
*Hiylə içün elm tə'limin qılan müfsidlərə,*
*Qətli-am içün verər cəlladə tiği-abdar.*
*Hər nə təzvir etsə əhli-cəhl ona olmaz səbat,*
*Məkri-əhli-elmdir, əsli-fəsadi-ruzigar.* [6, s.353-354]

Şair təqdim olunan bu qitədə müəllimə xitabən bildirir ki, elm pis adamlar əlində fırıldaqçılıq aləti olduğundan hiyləgər adamlara savad öyrətməkdən çəkin. Fitnə-fəsad törədənlərə hiylə üçün elm öyrədən ümumi qırğın üçün cəlladın əlinə sıyrılmış qılınc verir. Cahillər hər nə fırıldaq işlətsələr də, onun möhkəmliyi (gücü) olmaz. Dünyada olan fitnə-fəsad elm adamlarının hiyləsindən yaranar.

Füzulinin var-dövlət hərisi olan insanlara ünvanlanmış aşağıdakı qitəsi də nəsihətamiz məzmunu ilə seçilir:

*Ey ki, əndişeyi-mal ilə sərasimə olub,*
*Dünü gün dəhrdə aşüftə keçər əhvalın.*
*Cəm'i-mal eylədigin rahət üçündür, əmma*
*Rahətin əksik olur, hər necə artar malın.*
*Mal çox etmə, həzər eylə əzabından kim,*
*Rənci artar, ağır olduqca yükü həmmalın.* [6, s.354]

Şair qitədə var-dövlət, sərvət düşkünü olan kəsə müraciət edərək xatırlatmaq istəyir ki, var-dövlət fikri ilə sərsəm olanın əhvalı həyatda gecə-gündüz həyəcan içində keçər. Sənin mal-dövlət yığmağın rahatlığın üçün olsa da, malın artıqca rahatlığın da azalar. Çox mal yığmaq əzabından çəkin. Çünki hammalın yükü çox olduqca əziyyəti də artar.

Füzulinin az qala, xalq arasında məsələ çevrilmiş "*Cənnəti almaq olmaz ağça ilə*" və "*Girmək olmaz behiştə rüşvət ilə*" misralarının daxil olduğu aşağıdakı qitə də diqqətəlayiqdir:

*Zülm ilə ağçalar alıb, zalim*
*Eylər ən'am xəlqə minnət ilə.*
*Bilməz onu kim, etdigi zülmə*
*Görəcəkdir cəza məzəllət ilə.*
*Müddəası bu kim, rizayi-ilah*
*Ona hasil ola bu adət ilə.*
*Cənnəti almaq olmaz ağça ilə.*
*Girmək olmaz behiştə rüşvət ilə.* [6, s.356]

Şairə görə, zalım zülm yolu tutmaqla aldığı puldan xalqa minnətlə hədiyyələr verir. Amma onu da bilmir ki, etdiyi zülmə görə zəlilliklə cəza görəcəkdir. Həmin kəsin iddiası budur ki, bu adətlə ona Allahın məmnunluğu hasil olsun. Ancaq o unudur ki, cənnəti pul ilə almaq, behiştə rüşvətlə girmək olmaz. Füzuli bu qitəsində bildirmək istəyir ki, zülm ilə deyil, halallıqla qazanılan puldan başqalarına hədiyyə verməklə Allahın rizasını qazanmaq və cənnətə girmək mümkündür.

Füzuli aşağıdakı qitəsində isə özü ilə sərvət düşkünü olan biri arasında müqayisə apararaq yazır:

*Sərfi-naqdi-ömr edib mən kəsbi-irfan etmişəm,*
*Əhli-dünya həm kamali-cəhl ilə təhsili-mal.*
*Dəhr bir bazardır, hər kim mətain ərz edər:*
*Əhli-dünya – simü zər, əhli-hünər – fəzlü kamal.*
*Kim ki, məndən nəf' bulmaz, istəmən nəf'in onun,*
*Ol ki, yox nəf'im ona, nəf'in mənə olmaz həlal.*
*İstəmən nadan mənə gər versə gənci-simü zər*
*Kim, əvəzsiz malə nadandan təsərrüfdür vəbal.* [6, s.357]

Şairin qənaəti belədir ki, mən ömrümün nəqdini (varını) sərf edərək irfan qazanmışam. Dünyapərəst isə cahilliklə mal yığmışdır. Dünya bir bazardır ki, hər kəs öz mətahın (malın – varın) göstərir: dünyapərəst (var-dövlət hərisi) qızıl-gümüş, hünər əhli isə ağıl və kamal. Kim ki məndən fayda tapmaz, onun faydasını istəmirəm. O adama ki mənim faydam yoxdur, onun xeyri mənə halal olmaz. Əgər nadan mənə qızıl-gümüş xəzinəsi versə, istəmərəm, çünki nadandan əvəzsiz mala sahib olmaq günahdır. Beləliklə, Füzuli nadan adamdan uzaq durmağı üstün tutaraq bildirmək istəyir ki, nadan adamın malının əvəzini ancaq nadanlar verə bilər.

Füzulinin aşağıda təqdim olunan qitəsi də öncə haqqında danışılan qitənin davamı kimi özünü göstərir:

*Eyləyib nadanə ərzi-fəzlü izhari-hünər,*
*Şərmsar etmək, ata ummaq, nədir zülmi-sərih!*
*Sən bilirsən, mücməlan, ondan nə alırsan, vəli*
*Bilməz ol kim, aldığ səndən həsəndir, ya qəbih.*
*Zahirən satmaq hünər, almaq ata bir bey'dir,*
*Tifldir nadan, buyurmaz şər' onun bey'in səhih.* [6, s.357]

Nadana fəzilət göstərərək hünər bildirmək, (onu) utandırmaq, (ondan) bəxşiş ummaq açıq-aşkar zülmdür. Sözün qısası, sən bilirsən ki, ondan nə alırsan, amma o bilməz ki, səndən aldığı gözəldir, ya çirkin. Zahirən, satmaq hünərdir, bəxşiş almaq alverdir. Nadan bir uşaq olduğu üçün şəriət onun alverini doğru saymaz. Göründüyü kimi, Füzuli nəinki nadan adamla yaxınlıq etməyi, hətta onunla alış-veriş etməyi də düzgün hesab etmir.





Füzuli aşağıdakı qitəsində isə insan xarakterini səciyyələndirən xüsusiyyətləri, bilavasitə, genetik amillərlə bağlayır:

*Hər kimin var isə zatında şərarət küfrü,*
*İstilahati-ülum ilə müsəlman olmaz.*
*Gər qara daşı qızıl qan ilə rəngin edəsən,*
*Təb'ə tağyir verib, lə'li-Bədəxşan olmaz.*
*Eyləsən tutiyə tə'lim ədayi-kəlimat,*
*Nitqi insan olur, əmma özü insan olmaz.*
*Hər uzun boylu, şücaət edə bilməz də'va,*
*Hər ağac kim boy ata, sərvi-xuraman olmaz.* [6, s.357]

Hər kimin zatında (fitrətində, əslində) yamanlıq küfrü varsa, o, elmi terminlər vasitəsilə (elm öyrənməklə) müsəlman olmaz. Əgər qara daşı qızıl (qırmızı) qanla rəngləsən, təbiətini (xassəsini) dəyişib Bədəxşan ləlinə çevrilməz. Müəllif bu məqamda nitqlə təfəkkürün bağlılığına da işarə edərək yazır: tutuquşuya sözləri tələffüz etmək qaydası öyrətsən, sözləri insan nitqi olar, amma özü insan olmaz. Hər ucaboylu şücaət göstərib vuruşa bilməz, hər boy atan ağac nazla yeriyən sərv ağacı olmaz. Göründüyü kimi, Füzuli burada hər şeyin zahiri görünüşü ilə daxili aləminin (əslinin) eyniyyət təşkil etmədiyini vurğulayaraq daxili (həqiqi) saflığa, gözəlliyə üstünlük verir.

Füzuli başqa bir qitəsində isə övlad tərbiyəsində uşağın zəhmətə alışmasının xüsusi rolu olduğunu vurğulayaraq xacəyə müraciətlə yazır:

*Ey xacə, gər qulundan oğulluq murad isə,*
*Şəfqət gözilə bax ona daim oğul kimi.*
*Vər oğlunu dilərsən ola sahibi-ədəb,*
*Əlbəttə, eylə zillətə mö'tad qul kimi.* [6, s.358]

Ey xacə, əgər qulundan oğulluq görmək istəyin varsa, ona həmişə oğlun kimi şəfqət (səmimi sevgi) gözü ilə bax. Yaxud oğlunun ədəb sahibi olmağını arzulayırsansa, əlbəttə, onun qul kimi zillətə (zəhmətə) alışmasına çalış. Beləliklə, Füzuli bu qitədə tərbiyə işində övladın zəhmətə alışmasına önəm verir.

Şairin "Padşahi-mülk..." qitəsi həm həcminə, həm də ifadə etdiyi fikir və məzmun əhatəsinə görə seçilir. Müəllif burada iki obrazı – hökmdar və şairi qarşılaşdırır. Ölkənin padşahı dinar və dirhəm (qızıl və gümüş pul) rüşvət verərək başqa bir ölkəni tutmaq üçün qoşun hazırlayır. Padşah yüz fitnə-fəsad yolu ilə elə bir ölkə alır ki, ora əmin-amanlıqdan və sabitlikdən uzaqdır. Fələyin gedişatı bir inqilab (çevriliş) göstərən kimi, padşahın həm özü, həm qoşunu, həm də ölkəsi məhv olur:

*Padişahi-mülk, dinarü dirəm rüşvət verib,*
*Fəthi-kişvər qılmağa eylər mühəyya ləşkəri.*
*Yüz fəsadü fitnə təhrikilə bir kişvər alır,*
*Ol dəxi asari-əmnü istiqamətdən bəri.*
*Göstərən saətdə dövrani-fələk bir inqilab,*
*Həm özü fani olur, həm ləşkəri, həm kişvəri.* [6, s.360]

Sonrakı hissədə isə ölkə padşahından tamamilə fərqlənən, onun əksi olan bir adamdan – şeir sultanından söhbət gedir. Şair özünü elə bir sultana bənzədir ki, onun sözlərinin faydası taleyinin, bəxtinin zəfərlə başa çatacağını təmin etmişdir:

*Gör nə sultanəm məni-dərviş kim, feyzi-süxən*
*Eyləmiş iqbalimi asari-nüsrət məzhəri.* [6, s.360]

Şair – lirik qəhrəman hər sözünü elə bir pəhləvana bənzədir ki, Allah yardımı ilə hara getsə, tədriclə dənizi və qurunu tutar. Hara hərəkət etsə, əməkhaqqı, məvacib istəməz, hansı mülkü tutsa, kimsəyə ziyanı dəyməz:

*Hər sözüm bir pəhlivandır kim, bulub tə'yidi-həq,*
*Əzm qıldıqda tutar tədric ilə bəhrü bəri.*
*Qanda kim, əzm etsə, mərsumü məvacib istəməz,*
*Qansı mülkü tutsa dəgməz kimsəyə şurü şəri.* [6, s.360]

Müəllifə görə, ruzigarın dövr etməsinin bəlası onun sözlərini ayaq altına salmaz, fələyin təkərinin fırlanması da onlara təsir eyləməz:

*Payimal etməz onu asibi-dövri-ruzigar,*
*Eyləməz tə'sir ona dövrani-çərxi-çənbəri.* [6, s.361]

Şairin yaratdığı söz sultanının qənaəti belədir ki, dünyadakı sultanlar mənə səxavət təklifi eləməsinlər, başımdakı qənaət tacı mənim üçün yetərlidir, yəni mən aza da qaneyəm:

*Qılmasın dünyadə sultanlar mənə təklifi-cud,*
*Bəs dürür başımda tövfiqi-qənaət əfsəri.* [6, s.361]

Özünü əbədi, hökmdarları isə ötəri bir heç sayan şair belə hesab edir ki, hər cəhətdən asudə və rahatam; Allah o gündən qorusun ki, dünyada bəqa əhli ruzi üçün fəna əhlinin nökəri ola:

*Hər cəhətdən fariğəm, aləmdə haşa kim, ola*
*Rizq üçün əhli-bəqa, əhli-fənanın çakəri.* [6, s.361]

Qitənin birinci hissəsində hökmdarın faniliyi (heçliyi) ilə əməllərinin pisliyini, ikinci hissədə isə şairin söz mülkünün əbədiliyi ilə sözlərinin gözəlliyini qarşılaşdıran müəllif sonda əbədi və ölməz olana – şairə üstünlük verir.

Füzulinin bir sıra qitələrində şeir sənəti, nəzm və nəsrlə bağlı düşüncələrə də yer verilmişdir. Bu baxımdan aşağıdakı qitə diqqəti cəlb edir. Şair qitədə qəzəl janrının qarşısında müəyyən tələblər qoyaraq yazır:

*Oldur ğəzəl ki, feyzi onun am olub müdam,*
*Arayişi-məcalisi-əhli-qəbul ola.*
*Virdi-zəbani-əhli-səfavü sürur olub,*
*Məzmunu zövqbəxş, səriül-hüsul ola.*
*Ondan nə sud kim, ola mübhəm ibarəti,*
*Hər yerdə istimain edənlər məlul ola.* [6, s.357]





Müəllifə görə, əsl qəzəl odur ki, onun faydası daima bütün xalqa çatsın, o hamı tərəfindən qəbul edilən məclislərin bəzəyi olsun. Qəzəl səfa və şadlıq məclisi əhlinin dilinin əzbəri olmaqla yanaşı, onun məzmunu da zövq bəxş edən və tez anlaşılan olsun. O qəzəldən nə fayda ki, sözləri anlaşılmaya, dinləyənləri hər yerdə kədərləndirə.

Füzulinin bu qitəsi məzmunca onun Azərbaycan-türk divanının dibaçəsində olan aşağıdakı nümunə ilə olduqca yaxından səsləşir. Ümumiyyətlə, istər şairin divanı, istərsə də digər əsərləri üzərindəki müşahidələr göstərir ki, bəzən Füzulinin məzmunca bir-birinə yaxın, hətta rədifi eyni olan müxtəlif janrlarda yazılmış əsərləri də vardır. Bu baxımdan aşağıdakı nümunə də təsadüfi sayılmamalıdır:

*Qəzəldür səfabəxşi-əhli-nəzər,*
*Qəzəldür güli-bustani-hünər.*
*Ğəzali-qəzəl seydi asan degil,*
*Qəzəl münkiri əhli-irfan degil.*
*Qəzəl bildirir şairin qüdrətin,*
*Qəzəl artırır nazimin şöhrətin.*
*Könül, gərçi əş'arə çox rəsm var,*
*Qəzəl rəsmin et cümlədən ixtiyar*
*Ki, hər məhfilin zinətdir qəzəl,*
*Xirədməndlər sən'ətidir qəzəl.*
*Qəzəl de ki, məşhuri-dövran ola,*
*Oxumaq da, yazmaq da asan ola.* [6, s.30]

(Sadələşdirilmiş nəsr variantı: *Qəzəl düşünənlərə görə səfalar bəxş edəndir. Qəzəl hünər bağçasının gülüdür. Qəzəl ceyranını ovlamaq asan deyil. Qəzəl irfan əhlinin inkar etdiyi deyil. Qəzəl bildirir şairin qüdrətin. Qəzəl artırır şairin şöhrətin. Könül, indi ki, şeirə çox həvəsin var, Qəzəl yazmağa daha çox həvəs göstər. Çünki qəzəl hər məclisin bəzəyidir, Ağıllı adamların sənətidir. Qəzəl de ki, dövranda məşhur ola, Oxumaq da, yazmaq da asan ola*) [4, s.30].

Ancaq təəssüflə bildirmək istəyirik ki, şairin divanının dibaçəsində verilən bu nümunə janr baxımından qitə janrında olmasa da, həm nəşr olunmuş divanda, həm də sadələşdirilmiş nəsr variantında qitə kimi təqdim edilmişdir.

Füzuli aşağıdakı qitəsində onu təqlid edənlərə öz etirazını bildirərək yazır ki, iddia edən, yəni rəqib məni nəzm və nəsrdə təqlid edir. Lakin o, kobud, rabitəsiz sözlərə və kədərləndirici bir zata malikdir. Şair burada öz sözlərini pəhləvanların yel kimi uçan atlarını hər yana səyirtməyinə, təqlidçiləri isə uşaq kimi ağacdan at minib cövlan edənlərə bənzədir:

*Müddəi eylər mənə təqlid nəzmü nəsrdə,*
*Leyk naməzbut əlfazü mükəddər zatı var.*
*Pəhlivanlar, badpalər səgridəndə hər yana,*
*Tifl həm cövlan edər, əmma ağacdan atı var.* [6, s.362]

Şair başqa bir qitəsində isə fars dili ilə müqayisədə türkcə əruz vəznində şeir yazmağın çətinliklərindən danışır. Əruzda yazılan şeir türk tələffüzünə uyğun gəlmir, türk ləhcəsi belə nəzmi, tərkibi, yəni söz birləşmələrini, izafət tərkiblərini qəbul etmir; qəbul etdikdə isə o söz və ifadələrdən əruz vəzninə uyğun birləşmələr yaratmaq mümkün olmur. Nəticədə həmin söz və ifadələr əksər vaxt rabitəsiz və kobud alınır. Şair sonda öz qarşısında şərt qoyaraq bildirir ki, məndə bacarıq olsa, bu çətinliyi asan eyləyərəm. Necə ki bahar gələndə tikandan gül yarpağı hasil olur:

*Ol səbəbdən farsi ləfzilə çoxdur nazm kim,*
*Nazmi-nazik türk ləfzilə ikən düşvar olur.*
*Ləhceyi-türki qəbuli-nəzmi-tərkib etməyib,*
*Əksərən əlfazi naмərbutü nahəmvar olur.*
*Məndə tovfiq olsa, bu düşvarı asan eylərəm,*
*Novbahar olğac tikəndən bərgi-gül izhar olur.* [6, s.362]

Həqiqətən də, Füzulinin yaradıcılığı ilə tanışlıq göstərir ki, o, sözügedən qitəsində ana dilində nəzmi-nazik (incə şeir) yaratmağın çətinliyindən şikayətlənsə də, bu dildə "incə nəzm" yaratmaq vəzifəsinin öhdəsindən ləyaqətlə, bacarıqla gəldi. Təsadüfi deyil ki, orta əsrlər Azərbaycan-türk poeziya dili məhz Füzuli qələmi ilə özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoymuş oldu.

Füzulinin qitələri forma və bədii sənətkarlıq baxımından da diqqəti çəkir. Şairin divanına daxil olan 42 qitənin qafiyələnməsi janrın tələblərinə tam uyğundur. İyirmi dörd qitədə rədifdən istifadə edilmişdir. Nəzərə alaq ki, bəzən eyni rədifli bir neçə qitə vardır və işlənən rədiflərdə köməkçi nitq hissələri ilə yanaşı, köməkçi sözlərdən də istifadə edilmişdir. Füzulinin qitələrində işlədilən rədiflər söz tərkibi etibarilə də fərqlidir. Belə ki, onlardan iyirmi ikisi bir (*"edər", "səni", "sənə", "degil", "vermaz", "ancaq", "görəlim", "ilə", "ola", "olur", "olmaz", "olmadan", "ona", "etdin", "etmədin", "tutsan", "tək", "kimi", "sərf", "var"*), ikisi isə iki sözdən (*"eylər səni", "həzər qılmazmısan?"*) ibarət rədiflərdir.

Füzulinin qitələri beyt sayına görə də müxtəlifdir. Belə ki, onlardan 11-i iki beytlik qitədən ibarətdir. Digər qitələr isə öncə qeyd edilən *böyük, uzun qitələrə* (*qiteyi-kəbirəyə*) uyğun gəlir. Onlardan 16-sı üç, 8-i dörd, 1-i beş, 3-ü altı, 1-i yeddi, 1-i 9, 1-i isə 16 beytdən ibarətdir. Füzulinin

*Ey vücudi-kamilin ayinədari-feyzi-həq,*
*Asitanın qibleyi-hacati-ərbabi-yəqin.* [6, s.352]

– beyti ilə başlayan qitəsi 16 beytdən ibarət olub, onun ən böyük qiteyi-kəbirəsidir.

Füzuli qitələrinin vəzni üzərində aparılan araşdırma göstərir ki, onlar əruzun 5 bəhrinin müxtəlif növlərində qələmə alınmışdır. Şairin qitələrinin vəzn xüsusiyyətləri ilə bağlı bəzi cəhətlərə diqqət edək. Bildiyimiz kimi, bəhrlərin növündən asılı olaraq, hər misranın qəlibi müxtəlif sayda təfilələrdən ibarət ola bilər. Bu baxımdan yanaşdıqda aydın olur ki, şairin qitələrində misralar (qəliblər) bölüm kəmiyyəti üzrə iki qrupa bölünür: dördbölümlülər, üçbölümlülər. Füzulinin 37 qitəsində dördbölümlü, 5 qitəsində isə üçbölümlü qəlibdən istifadə edilmişdir. Hər iki qrupa aid nümunələrə diqqət edək.

1. Dördbölümlülər:

*Pərdə çak eybinə zülmət kimi, xəlqin daim,*
*Gər dilərsən ki, nəsib ola sənə abi-həyat.* [6, s.353]
*fA'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün* (rəməl, IX növ)

* * *

*Həmişə dustum oldur, dərəm ki, mal verib,*
*Qılır təbiətimi basteyi-əlaqeyi-mal.* [6, s.355]
*məfA'ilün fə'ilAtün məfA'ilün fə'ilün* (müctəs, II növ)

2. Üçbölümlülər:

*Necə bir nəfs təmənnası ilə,*
*Yeməkü içmək ola dilxahın.* [6, s.355]
*fə'ilAtün fə'ilAtün fə'ilün* (rəməl, XIII növ)





* * *

*Min ikən qədrü qiymətin bir olur,*
*Müztərib olsa qəlbin, ey arif!* [6, s.356]
*fə'ilAtün məfA'ilün fə'ilün* (xəfif, I növ)

Məlumdur ki, qəliblər keyfiyyət üzrə də müxtəlif olur: 1. Eyni bir təfilənin təkrarından əmələ gələnlər; 2. İki növ təfilədən əmələ gələnlər; 3. Üç növ təfilədən əmələ gələnlər; 4. Dörd növ təfilədən əmələ gələnlər. Füzuli qitələrində bu deyilənləri izləyək.

1. Qəliblər eyni bir təfilənin təkrarından əmələ gəlir; məsələn:

*Sədayi-ney həram olmaz, dedin, ey sufiyi-cahil,*
*Yelə verdin xilafi-şər'ilə namusun islamın.* [6, s.361]
*məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün* (həzəc, I növ)

2. Qəliblər iki növ təfilədən əmələ gəlir; məsələn:

*Sərfi-nəqdi-ömr edib mən kəsbi-irfan etmişəm,*
*Əhli-dünya həm kəmali-cəhl ilə təhsili-mal.* [6, s.357]
*fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün* (rəməl, II növ)

3. Qəliblər üç növ təfilədən əmələ gəlir; məsələn:

*Zülm ilə ağçalar alıb, zalim*
*Eylər ən'am xəlqə minnət ilə.* [6, s.356]
*fə'ilAtün məfA'ilün fə'ilün* (xəfif, I növ)

4. Qəliblər dörd növ təfilədən əmələ gəlir; məsələn:

*Mən sübhü şam dudi-dili-suznak ilə,*
*Bağrın kəbab edib, verərəm çərxə inqilab.* [6, s.354]
*məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilün* (müzare, I növ)

Onu da qeyd edək ki, dörd növ təfilədən əmələ gələn bu cür qəlibli şeir yazmaq çətindir, çünki bu qəlib dörd müxtəlif ritmli təfilənin iştirakı ilə yaranır. Ancaq Füzuli bütün yaradıcılığı boyu bu işin öhdəsindən bacarıqla gəlmiş, gözəl sənət örnəkləri yaratmağa nail olmuşdur.

Füzulinin qitələrində istifadə etdiyi əruz bəhrləri içərisində birinci yeri *rəməl* bəhri tutur. Şairin 26 qitəsi rəməl bəhrinin müxtəlif növlərində qələmə alınmışdır. Onların 19-u (№ 1, 2, 4, 5, 7, 12, 21, 22, 24, 25, 27, 28, 29, 31, 33, 35, 40, 41, 42) ikinci (*fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün*), 5-i (№ 9, 13, 23, 37, 38) yeddinci (*fə'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün*), 1-i (№ 6) doqquzuncu (*fA'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün*), 1-i (№ 15) isə on üçüncü (*fə'ilAtün fə'ilAtün fə'ilün*) növə aiddir.

*Müzare* bəhri şairin qitələri içərisində işlək olması baxımından ikinci sırada gəlir. Füzulinin bu bəhrdə 6 qitəsi var. Onların hamısı (№ 3, 10, 17, 20, 26, 39) müzare bəhrinin birinci növündə (*məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilün*) qələmə alınmışdır.

*Həzəc* və *xəfif* bəhrləri şairin qitələri içərisində işlək olması baxımından üçüncü sırada gəlir. Füzulinin qitələrindən 4-ü (№ 30, 32, 34, 36) həzəc bəhrinin birinci (*məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün*) növündədir. Eləcə də şairin 4 qitəsi xəfif bəhrində yazılmışdır. Onlardan 3-ü (№ 14, 18, 19) xəfif bəhrinin birinci (*fə'ilAtün məfA'ilün fə'ilün*), 1-i (№ 11) isə dördüncü (*fA'ilAtün məfA'ilün fə'lün*) növündə yazılmışdır.

Füzulinin qitələri içərisində *müctəs* bəhrində yazılmış 2 nümunə vardır. Onlardan 1-i (№16) müctəs bəhrinin ikinci (*məfA'ilün fə'ilAtün məfA'ilün fə'ilün*), digəri (№ 8) isə üçüncü (*məfA'ilün fə'ilAtün məfA'ilün fə'lün*) növünə aiddir.

Füzulinin qitələri dil-üslub və bədii sənətkarlıq xüsusiyyətləri baxımından da seçilir. Fikrin ifadəsində obrazlılıq şairin digər janrlarda qələmə aldığı örnəklərlə müqayisədə silsilə bənzətmələr şəklində olmasa da, burada da əsas ifadə vasitəsi kimi özünü göstərir. Bunu təhlilə cəlb edilən nümunələrdə, demək olar ki, əyani şəkildə görmək mümkündür.

### Nəticə / *Conclusion*

Beləliklə, Füzulinin Azərbaycan-türk divanı ilə tanışlıq göstərir ki, o, divan ədəbiyyatımızın ən işlək olan bütün janrları ilə yanaşı, qitə janrında da bir-birindən gözəl sənət örnəkləri yaratmışdır. Şair müraciət etdiyi digər janrlarda olduğu kimi, qitə janrında da məzmun və forma baxımından seçilən örnəklər qələmə almış, onun ənənələri sonralar bir çox sənətkarlar tərəfindən davam və inkişaf etdirilmişdir. Ümumilikdə, Füzuli divan ədəbiyyatımızı təkcə qəzəl və qəsidələri ilə deyil, qitə, rübai kimi digər lirik şeir janrları ilə də zənginləşdirmişdir.

### Ədəbiyyat / *References*


1. Ahmet Mermer, Neslihan Koç Keskin. Eski Türk Edebiyatı Sözlüğü. – Ankara: Akçağ Yayınları, 2011.
2. Fuzuli Divanı (İnceleme-Tehkitli Metin). (Hazırlayan: A.Kılınç). – İstanbul: Türkiye Yazma Eserler Kurumu Bakanlığı Yayınları, 2021.
3. Füzuli. Əsərləri. Altı cilddə, I cild (Tərtib edəni: H.Araslı). – Bakı: Azərbaycan, 1996.
4. Quliyev, T. Füzuli divanının dibaçəsi. "Ədəbiyyat qəzeti", 2024, 18 may, № 18, s.30-31.
5. Məhəmməd, F. Əsərləri. Beş cilddə, I c. (Tərtib edəni: H.Araslı). – Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1958.
6. Məhəmməd, F. Əsərləri. Altı cilddə, I c. (Tərtib edəni: H.Araslı). – Bakı: Qərb-Şərq, 2005.
7. Rəfioğlu, S. R. Füzuli (Nəşrə hazırlayan: Ataəmi Mirzəyev). Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası. III cild. – Bakı: Elm və təhsil, 2019.
8. Yekta Saraç. Biçim-Ölçü-Kafiye. – İstanbul: Gökkubbe, 2022.


## Жанр гыта в азербайджано-тюркском Диване Физули

**Атаами Мирзоев**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: ataemi@rambler.ru

**Резюме.** Всеми полюбившийся Диван великого азербайджанского поэта Мухаммеда Физули (1494-1556) на родном азербайджанском языке прославил его во всём тюркском мире. В Диване поэта, имеются образцы, написанные, можно сказать, во всех жанрах лирической поэзии. Известно, что Физули прославился, прежде всего, как мастер газели. Газели поэта привлекают неповторимой выразительностью своего лиризма, мысли, чувств и размышлений. Особое место в Диване Физули, наравне с газелями, занимают образцы, написанные в





жанре гыта, которые привлекают внимание с точки зрения содержания, формы, художественности. Поэт, не используя, согласно традиции, тахаллус, в своих гыта создал различные по объёму образцы в этом жанре. Гыта Физули и по содержанию богатые и яркие. Помимо богатого содержания, в них содержатся общественные, нравственно-дидактические, назидательные, гуманные, поэтические и другие вопросы. Помимо указанных свойств гыта поэта, в статье они исследованы с точки зрения рифмы, редифа, формы и размера, показано, что гыта Физули привлекают внимание своей оригинальностью.

**Ключевые слова:** Физули, жанр, гыта, бейт, рифма, размер